# Azərbaycanda Şəxsi Həyatın Toxunulmazlığı və İfadə Azadlığı Arasında Tarazlaşdırılmış Siyasətin Yaradılması İmkanları

**Pərvanə Persiyani**

**Adnan Hacızadə**

## Ön Söz

Bu yaxınlarda Azərbaycan Respublikasının Milli Məclisi Kütləvi İnformasiya Vasitələri (KİV) haqqında qanuna yeni əlavələr qəbul etdi. Əlavələr, dövlətin Kütləvi İnformasiya Vasitələri ilə bağlı siyasətinin dəyişdirilməsinə yönəlib. Yeni əlavələrin əsas xüsusiyyəti onların tədqiqatçı jurnalistikaya ciddi əngəllər törətməsindən ibarətdir. Bu əlavələrdə icazəsiz hər hansı səs və ya video yazının aparılmasına qadağalar qoyulub. (Mərkəzi Asiya və Cənubi Qafqaz İfadə Azadlığı Şəbəkəsinin Azərbaycan üzrə verilənlər bazası, 10 Mart, 2009)

Avropa İnsan Hüquqları Konvensiyası (AİHK) üzv dövlətlərin üzərinə bir sıra tələblərin yerinə yetirilməsi öhdəliyini qoyur. (Avropa Şurasının Məlumat Bazası)

AİHK-na uyğun olaraq, Azərbaycan Respublikasının Konstitusiyası bir tərəfdən ifadə azadlığı digər tərəfdən isə şəxsi həyatın toxunulmazlığını tanıyır. Lakin əlavələrin qəbul olunması cəmiyyətdə şəxsi həyatın toxunulmazlığı və ifadə azadlığı arasındakı tarazlıq haqqında müzakirələrə təkan verdi. Müzakirələrdə iştirak edən ictimaiyyət nümayəndələrinin qənaətinə görə, sözügedən əlavələr KİV üzərində qeyri-rəsmi senzura və kontrola gətirib çıxarır.

Təqdim olunan sənəd iki təməl hüquq arasında tarazlığın qurulmasının mümkünlüyünü araşdırır.
İfadə azadlığına qoyulan qadağa və məhdudiyyətlər onun digər hüquqlara nisbətən vacibliyini sual altına qoyur və nəticədə bu demokratiyanın tənəzzülünə gətirib çıxarır. Araşdırmanın gəldiyi nəticəyə görə, digər hüquqlarla müqayisədə (xüsusi olaraq şəxsi həyatın toxunulmazlığı hüququ ilə) ifadə azadlığına münasibətdə daha ehtiyatlı davranma və daha yaxşı düşünülmüş siyasət gözlənilməlidir.

Araşdırmada istifadə olunmuş metodologiya əsasən keyfiyyət meyarlarını nəzərə alır. Bu araşdırmada problemlə üzləşən və onu həll edən digər Avropa ölkələrinin təcrübəsindən istifadə, izahlı məlumat və Azərbaycanda şəxsi həyat və ifadə azadlığı ətrafında gedən müzakirələrdən misallar təqdim olunacaq.

Bu araşdırma mətbuat azadlığı və şəxsi həyat hüquqlarının mövcud nəzəriyyəsi, Avropa Şurası və İnsan Haqları üzrə Avropa Məhkəməsinin təklif və məhkəmə işlərindən nümunələri; KİV haqqında qanuna edilmiş yeni əlavələrin fonunda media üçün azad mühitin yaradılması konseptini tətbiq və təqdim edəcək. Araşdırmanın məqsədi şəxsi həyatın toxunulmazlığı və ifadə azadlığını arasında tarazlaşdırılmış siyasətin qurulmasının yollarının təyin edilməsidir.

Bölüm 1. Şəxsi həyat və Məlumat mövhumları arasındakı münaqişənin nəzəri əsasları.

### 1.1 Şəxsi həyat və media: iki təməl hüququn toqquşması

Daniel C.Solove və Paul M.Schwartz şəxsiliyi „qlobal problem" adlandırırlar. Solove və Schwartz-a görə Şimali Amerika, Avropa və Asiyada şəxsi həyatın toxunulmazlığı haqqındakı qanunlar İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (İİƏT) 1980-ci ildə qəbul olunmuş prinsipləri və tövsiyələri üzərində qurulub. Avropa Birliyi də, Məlumatın Qorunması haqqında Avropa Birliyinin Direktivlərini qəbul edib. Həmin Direktivlər "Avropa Birliyinin üzv ölkələrində şəxsi həyatın toxunulmazlığına dair qanunvericiliyinin təməl prinsiplərini əks etdirir" (2008, 38). Digər tərəfdən, ifadə azadlığı və medianın sərbəstliyi demokratik və inkişaf edən cəmiyyətlərin özək elementləridir.

İfadə və məlumatı əldə etmək azadlığı fiziki şəxslər və mətbuat nümayəndələri arasında bərabər paylanıb. Tədqiqatçı jurnalistikanın amalı isə "həqiqətin aşkarlanması" kimi göstərilir (Weisbord 2000, 3). Frostun fikrinə əsasən „demokratik cəmiyyətlərdə, kriminal və ya anti-sosial motivli qüvvələrin sirr saxlamaq istədikləri məlumatı aşkarlayan mediaya xüsusi müdafiə lazımdır". *Fundamental İnsan Hüquqları arasındakı Münaqişə* kitabında Eva Brems münaqişənin alternativ həll yollarını göstərir. Müəllif, problemin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qanunvericiliyi çərçivəsində çözülməsinin mümkünlüyünün analizini aparır:

„10-cu maddədən doğan bu tip münaqişələrdə məsələnin şəxsi həyatın toxunulmazlığı tərəfinə az diqqət verilir. ... Məhkəmə, kimin reputasiyasının təhlükə altında olduğunu fərqləndirmir (siyasətçi, vacib sahibkar, transmilli şirkət və ya ictimai olmayan fiqur), əsas məsələ aşkarlanan məlumatın xarakteridir. Hər halda, bu seçimlər əsasən demokratiya üçün vacib olan ünsürlər üzərində qurulur:

“müəyyən həlledici məsələlər haqqında siyasətçilərin fikirləri, hər hansı biznesin mailiyyə vəziyyəti, ictimai müzakirələrin stimullaşdırılması, və həqiqət axtarışı” (2008, 43)

Göründüyü kimi, şəxsi həyatın toxunulmazlığı və ifadə azadlığı arasındakı konfliktin həlli əsasən pluralist və demokratik cəmiyyətinin inkişafı prinsipləri üzərində qurulub. Bu prinsiplərdə, ictimai maraq və azad mətbuat mühiti vacib faktorlardır.

Bölüm 2. Azərbaycanda Mətbuat Siyasəti və Azadlıqlar: Uyuşmaz Mövzu

***2.2. Şəxsi həyatın toxunulmazlığının qorunması mətbuat azadlığının məhdudlaşdırılmasına yönəlik siyasətin aləti kimi***

Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmuş qanun və standartlar əsasən bütün beynəlxalq standartlara uyğundur. Amma, onların tətbiq olunması bunun tam əksini göstərir.

Konstitusiya rəsmi olaraq senzuranı qadağan etməklə söz azadlığını təmin edir və dəstəkləyir, fəqət praktikada kütləvi informasiya vasitələrinin azadlıqlarının hüdudları bütün mövcud vasitələrlə sıxılır. Açıq Cəmiyyət İnstitutu / Soros Fondunun Kütləvi İnformasiya Vasitələri Proqramı bəyan edir ki, 2003-cü il prezident seçkilərindən başlayaraq jurnalistika bir peşə kimi bir çox hücumlara məruz qalıb və xeyli zəifləyib. Məsələ üzrə hazırlanan hesabata görə “... sonrakı illər ərzində bu hal özünü daha kəskin şəkildə büruzə verir”. (ACİ KİV Proqramı)

Freedom House təşkilatının 2009-cu ildəki ölkələr üzrə hesabatında Azərbaycanda mətbuat azadlığı aşağıdakı kimi təsvir olunur:

“Söz və mətbuat azadlıqlarının konstitusional və hüquqi müdafiəsinə baxmayaraq, 2008-ci il ərzində Azərbaycanda mətbuat azadlığının tənəzzülü davam etdi. Son bir neçə ildə ortaya qoyulmuş nümunəyə əsasən, hakimiyyət strukturları tənqidə qarşı tolerant mövqe göstərməyib, müxalifət mətbuatını susdurmaq üçün böhtan və defamasiya haqqındakı məhkəmə iddiaları, ədalətsiz məhkəmələr, fiziki hücumlar və mailiyyə təzyiqindən istifadə edib. Ölkədəki dövlət, ictimai və özəl telekanallar və radio şurası hakimiyyət strukturlarının təzyiqi altındadır, Milli Televiziya və Radio Şurasının (ölkədə yayımın idarəçisi və lisenziyaların verilməsi hüququna malik olan qurum) bütün 9 üzvü Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunur. (Freedom House Azərbaycan üzrə ölkə hesabatı, 2009)

Bundan başqa, 2005-ci ildə, jurnalist və “Monitor” analitik jurnalının baş redaktoru Elmar Hüseynovun, şəxsiyyəti müəyyən edilməmiş killerlər tərəfindən, vəhşicəsinə qətlə yetirilməsindən sonra, bir çox jurnalistlər müəyyən “özünü-senzura” yarandığını etiraf edirlər.

Beynəlxalq təşkilatlar, qeyri-rəsmi senzura və Azərbaycan hakimiyyəti tərəfindən söz azadlığının sıxışdırılması faktlarını pisləyir və onları ifşa edir. Beynəlxalq təşkilatlar tərəfindən təzyiqdən və tənqiddən boyun qaçırmaq üçün, Azərbaycan hakimiyyəti repressiya metodlarına mütəmadi olaraq dəyişiklik və yeniliklər edir. Yerli qanunvericilik də, bu məsələdə bir alət kimi istifadə olunur. Yaxınlarda Azərbaycan Respublikasının Milli Məclisi Kütləvi İnformasiya Vasitələri haqqında qanuna əlavələr qəbul etdi. Bu əlavələrdə deyilir: “əməliyyat-axtarış tədbirləri keçirilən hallar istisna olmaqla, digər hallarda şəxsin onun xəbəri olmadan və ya etirazına baxmayaraq izlənilməsi, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə kütləvi informasiya vasitələrinin nümayəndələri və digər şəxslər tərəfindən məruz qalması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur (IFEX, Avropa və Mərkəzi Asiya üzrı məlumat bazası, 17 Fevral, 2010) İctimai müzakirələrdə, bu əlavələr, hakimiyyət tərəfindən şəxsi həyatın toxunulmazlığının siyasi alət kimi qeyri-rəsmi senzuranın həyata keçirilməsi üçün istifadəsinin nümunəsi olaraq qiymətləndirilir. Ən çox müzakirə olunan məsələ əlavənin “əməliyyat-axtarış tədbirləri keçirilən hallar istisna olmaqla” hissəsidir. Bu terminologiya yetərincə açıqlanmayıb, anlaşılmazdır və əlavələrin natamam hissəsini təşkil edir. Bundan başqa, əlavələr vətəndaş jurnalistikası mövzusuna dəqiq münasibət bildirmir, və yuxarıda göstərilən müddəaların vətəndaş jurnalistikası ilə məşğul olan şəxslərə aidiyyəti olub-olmadığı aydın deyil. Bu əlavələrin vacibliyi və onların hansı səbəblərdən dolayı qəbul edildiyi haqqında yetəri məlumat yoxdur ki bu da əlavələrin legitimliyinə kölgə salır.

Əlavələrin yerli qanunvericilik və beynəlxalq standartların prinsipləri üzərində qurulması sual altındadır. Bu məqsədlə əlavələrin yerli qanunvericilik və beynəlxalq standartlardan fərqlənməsinin araşdırılması aparılmalıdır.

### *2.2.1. Yerli Miqyasda: Şəxsi Həyatın Toxunulmazlığı İfadə Azadlığına qarşı*

Azərbaycan Respublikasının yerli qanunvericiliyi şəxsi həyatın toxunulmazlığı və ifadə azadlığı haqqında müddəaları əks etdirir. Azərbaycan Respublikasının Konstitusiyasının 47-ci maddəsinə əsasən: “Hər kəsin fikir və söz azadlığı vardır.” Eyni zamanda, 50-ci maddə məlumat azadlığını əks etdirir: “Hər kəsin qanuni yolla istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və

yaymaq azadlığı vardır.” Göründüyü kimi Konstitusiya, düzgün hakimiyyət və qanunun aliliyi ilə idarə olunan cəmiyyətin bünövrəsi olan söz azadlığını təmin edir, amma praktikada söz azadlığını həyata keçirənlər məhz kütləvi informasiya vasitələridir. Buna görə də, söz azadlığına qarşı məhkəmə iddialarının böyük hissəsi kütləvi informasiya vasitələrin tənqidinə məruz qalan məmurlar tərəfindən qaldırılır. (INAM Pluralizm Mərkəzi, Azərbaycanda demokratiyanın mövcud durumu haqqında hesabat, Fevral 2009) Sözü gedən məhkəmə iddialarında şəxsi həyatın toxunulmazlığı hüququ media nümayəndələrinə qarşı qaldırılmış iddia predmetlərinin böyük hissəsini təşkil edir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Konstitusiyasında, dünyada “Privacy Rights” kimi tanınan hüquqlar “şəxsi toxunulmazlıq” və ya “şəxsi həyatın toxunulmazlığı” kimi göstərilib.

Azərbaycan Respublikasının qanunvericiliyi *de jure* sözü gedən iki fundamental insan hüquqlarının qorunmasını və həyata keçirilməsini təmin edir. Amma, konstitusiyada əks olunmuş hüquqların praktik tətbiqinə gəldikdə, hakimiyyət yeni əlavələrlə ifadə azadlığını *de fakto* sıxır. Yaxın gələcəkdə, əlavələrin mümkün təsiri Yeni Media üzərində daha çox hiss olunacaq (ənənəvi çap mediası da, təzyiqlərə məruz qalacaq). Müxalifət mətbuatı bu əlavələrin nəticəsində böyük zərbələrə məruz qalacaq. Televiziya hakimiyyətin birbaşa idarəsində olduğu üçün, sözügedən əlavələr bu mətbuat vasitəsində böyük dəyişikliklərə səbəb olmayacaq. Ümumi olaraq, jurnalist tədqiqatı prosesi zəifləyəcək və nəticə olaraq bu hal medianın inkişafına uzunmüddətli mənfi təsir göstərəcək.

### *2.2.2. Avropa Şurası: 8-ci Maddə 10-cu Maddəyə qarşı.*

Avrop İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsində şəxsi həyatın toxunulmazlığı hüququnun tərifi belə verilir: “Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir.” (Avropa İnsan Hüquqları Konvensiyası) Burada aydın göstərilir ki, 8-ci maddə, şəxsi həyatın toxunulmazlığı hüququ ilə qarşıdurmada, fərdlərə və ya jurnalist tədqiqatına heç bir hüdudlar qoymayır. 8-ci Maddənin 2-ci bəndində isə, bu hüququn həyata keçirilməsinə hakimiyyət orqanları tərəfindən müdaxilənin yolverilməzliyi aydın göstərilib. Digər tərəfdən, konvensiyanın 10-cu Maddəsinə əsasən: “Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir.” Maddə, bu azadlıqların demokratik cəmiyyətdə həyata keçirilməsinin vacibliyini vurğulayır. Buna görə, 10-cu Maddə ifadə azadlığının birbaşa tətbiqini söz azadlığının mövcud olduğu mühitdə görür. Əlavələrdə əks olunan qanunvericiliyin tətbiqi siyasəti beynəlxalq standartlardan xeyli fərqlənir. Birincisi, yeni əlavələr jurnalist tədqiqatının açıq şəkildə mümkünsüz edir. Qadağalar və senzura, araşdırmaların,

jurnalist tədqiqatlarının və mətbuat işinin qarşısının hər hansı yolla alınması ümumiyyətlə beynəlxalq standartlara ziddir.

İkincisi, əgər müzakirə olunan mövzu şəxsi həyatın toxunulmazlığıdırsa, sözü gedən əlavələr Konvensiyanın standartları ilə uzlaşmır. Çünki, Bremsin terminologiyasına əsasən Konvensiyada qəbul olunmuş şəxsi həyatın toxunulmazlığı hüququ "mütləq" deyil. (2009, 40) Bundan başqa, sözügedən əlavələrin qəbul olunmasının siyasi səbəbləri bu sənədin düzgün tətbiqini və yaxşı idarəetməni şübhə altına qoyur. Yerli media siyasəti qanunvericiliyinin beynəlxalq standartlara uyğun olmaması ən aydın şəkildə digər beynəlxalq qanunvericilikdə istifadə olunan müddəalarla müqayisədə görünür. Bunlara misal olaraq Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları, ABŞ qanunvericiliyi, Avropa Şurasına üzv olduqda Azərbaycanın qəbul və ratifikasiya etdiyi beynəlxalq standartları və Azərbaycan Respublikasının Konstitusiyasının qaynaqlandığı digər normativ-hüquqi aktlarını göstərmək olar.

Bölüm 3. Tövsiyələr

### 3.1. Mətbuat sahəsində islahatların tənzimlənməsi

Yuxarıda göstərilən bölümlərdəki araşdırmanın nəticələri və araşdırmada təqdim olunan nəzəri baza sübut edir ki, kütləvi informasiya vasitələri haqqında qanuna əlavələrə qanunverici orqanlar tərəfindən yenidən baxılmalıdır. Buna yardım olacaq bir neçə tövsiyələni təqdim edirik. Təqdim etdiyimiz tövsiyələrin birinci hissəsi ümumiyyətlə mətbuatın tənzimlənməsin standartlarının islahatları haqqında söz açacaq. İslahatların həyata keçirilməsi zamanı, əlavələrin müəyyən maddələrinə yenidən baxıldıqda aşağıdakı prinsiplərin nəzərə alınmasını məqsədəuyğun sayırıq:

- Tənzimləmə, ifadə azadlığı olan mühitin yaradılması və pluralist dəyərlərin inkişafı üçün şəffaf və bitərəf standartların bərqərar olunmasını həvəsləndirməlidir;
- Medianın tənzimlənmə standartları, müxtəlif ideyaların əks olunması, tədqiqat, ictimai maraq doğuran məsələlərin tədqiqi imkanlarının mətbuatda işıqlandırılmasını bitərəf şəkildə sığortalamalıdır
- "İctimai iştirak", "ictimai sfera", "ictimai maraq" kimi məsələlərlə hesablaşmalı və onlar sadəcə terminlər "çoxluğu" kimi qəbul olunmamalıdır. Bu məsələlər tənzimləyici alət və metodlar vasitəsi ilə açıq şəkildə təyin olunmalı və həyata keçirilməlidir. Çağdaş konstitusiya media tənzimlənməsi üçün əlverişli müzakirə və tətbiq müstəvisi deyil. Təməl haqların hüquqi müdafiəsindən başqa,

mətbuatı tənzimləmə siyasəti bu məqsəd üçün yaradılmış əlahiddə qurum tərəfindən həyata keçirilməlidir. Amma bu qurum dövlətdən və ya hər hansı bir başqa təşkilatdan müstəqil olmalıdır.

Adı çəkilən prinsip və dəyərlər, media siyasətinin həyata keçirilməsində əsas meyar olaraq götürülməlidir. Bu məsələdə bitərəflik, şəffaflıq və məsuliyyət də başlıca yer tutmalıdır.

### 3.2. Hüquqların balanslaşdırılması. Dünya təcrübəsi.

Bu araşdırmanın əsas məqsədi, Milli Məclis tərəfindən qəbul olunmuş əlavələrə dair fundamental hüquqlar arasında düzgün balansın tapılması və həyata keçirilməsidir. Tövsiyələrin ikinci hissəsi yuxarıda adı çəkilən fundamental hüquqların balanslaşdırılmasında dünya praktikasından istifadəni nəzərdə tutur. Bu halda dünya praktikası, şəxsi həyatın toxunulmazlığı və ifadə azadlığının arasında bitərəf və düzgün balansın yaradılması mənasına gəlir. Aşağıdakı tövsiyələr yerli qanunvericilik və icra orqanları tərəfindən, nəticələrin daha konstruktiv olması üçün, həyata keçirilməlidir:

- İnkişaf etmiş demokratik dövlətlərin təcrübəsindən istifadə edərək münaqişənin həlli üçün ixtisaslaşmış agentliyin və ya qurumun yaradılması. Bu mərhələdə ABŞ, Avropa Birliyi və Böyük Britaniya modelləri müzakirə oluna bilər. ABŞ-da bu vətəndaş cəmiyyəti və konstitusional müdafiə nəticəsində baş verir. Böyük Britaniya modeli olan Şəxsilik və Mətbuat İddiaları Kommisiyası da müsbət nümunə kimi istifadə oluna bilər. Bu nümunələrin yerli şəraitə uyğunlaşdırılması nəticəsində Media və Mətbuatın Ombudsman modelini təklif etmək olar ki, bu qurum müstəqil və bitərəf olmalıdır.
- Məhkəmə islahatının tənzimləməsi prosesi. İfadə azadlığının şəxsi həyatın toxunulmazlığı hüququ ilə ziddiyyət təşkil etməsinin səviyyəsi düzgün və ədalətli şəkildə bərqərar olmalıdır. Avropa Şurasının 1003-cü qətnaməsi bu proses zamanı əsas meyar kimi götürülməlidir.
- Medianın tənzimlənməsi üzrə beynəlxalq və yerli ekspertlər, tədqiqatçılar və müşavirlərdən ibarət komissiyanın yaradılması. Beynəlxalq ekspertlərin tövsiyə və araşdırmaları bu problemin dünya standartlarına və təcrübəsinə uyğun olaraq həll edilməsində lazımi rol oynayacaq. Əlavə olaraq, təklif etdiyimiz komissiya işində, internetin ictimai həyatada rolunu artırmaq üçün yaradılmış Avropa Şurasının Nazirlər Komitəsinin tövsiyyələrindən də yararlana bilər. Bu tövsiyələr özündə, media məkanında demokratiya və qanunun aliliyinin inkişafı üçün lazım olan elementləri daşıyır. (Avropanın “audio-visual” sektoruna aid olan hüquqi məlumat bazası)

- YUNESKO-nun Niderland Milli Komissiyasının qəbul etmiş “İfadə azadlığı, məlumata çıxış, kommunikasiya üsulları və şəxsi həyatın toxunulmazlığı” tövsiyələr paketindən də istifadə etmək olar. (Avropanın “audio-visual” sektoruna aid olan hüquqi məlumat bazası)
- Avropa Şurasının Parlament Assambleyasının 1993-cü ildə qəbul edilmiş 1003 nömrəli qətnaməsində deyildiyi kimi:
- Medianın əsas işi “əlaqələndirmək” və məlumatla təmin etməkdir. Və onların istifadə etdiyi ifadə azadlığı həmçinin mediadan yararlananlar, yəni vətəndaşlara məxsusdur.
- Məlumat fundamental hüquqdur. O, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarında, Konvensiyanın 10-cu və 9-cu maddələri və həmçinin bütün demokratik dövlətlərin konstitusiyalarında öz əksini tapıb. Hüququn sahibi vətəndaşdır və o jurnalistlər tərəfindən təqdim olunan məlumatın, xəbərlər olsa - həqiqəti əks etdirən, nəzər nöqtəsi olsa - dürüst və səmimi olmasını, heç bir dövlət və ya özəl qurum tərəfindən təzyiqə məruz qalmamasını tələb edə bilər.
- Dövlət strukturları məlumata “sahib” olduqlarını düşünməməlidir. Dövlətin bu məsələdə iştirakı plüralizm və ifadə azadlığının sərbəst şəkildə həyata keçirilməsi üçün hüquqi bazanın yaradılmasından ibarət olmalıdır. (*Frost, 2000, 226)*
- Adıçəkilən məsələlərdə beynəlxalq müqavilə və digər normativ sənədlərin yerli qanunvericilikdən hüquqi cəhətdən üstün olması praktikada həyata keçirilməli və bərkidilməlidir.

Nəticə

Milli Məclis tərəfindən, Kütləvi İnformasiya Vasitələri haqqında qanuna qəbul olunmuş əlavələrin nəzərdən keçirilməsi, və xüsusi olaraq şəxsin onun xəbəri olmadan və ya etirazına baxmayaraq izlənilməsi, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə kütləvi informasiya vasitələrinin nümayəndələri və digər şəxslər tərəfindən məruz qalmasının cəzalandırılması halı bu əlavələrin “qeyri-rəsmi” senzuranın aləti olduğunu göstərir. Bu fikir, Azərbaycanda mediasındakı mövcud durumu və çətinlikləri nəzərə alanda, daha aydın və dolğun gözə çarpır. Söz azadlığının boğulması, məlumata çıxışda yaranan problemlər birbaşa hakim dairələrin siyasətindən qaynaqlanır. Buna görə, güclü Prezidentlik institutuna malik olan Azərbaycanda, belə qanun dəyişiklikləri şəxsi həyatın toxunulmazlığının müdafiəsi kimi deyil, daha çox senzuranın artırılması kimi qiymətləndirilməlidir.

Araşdırmanın sonuncu bölümü media siyasəti üçün yararlı olan bir sıra tövsiyələri özündə birləşdirir. Bu tövsiyələr hakimiyyət tərəfindən şəffaf, məsuliyyətli və müstəqil medianın tənzimlənməsi siyasətinin qurulmasında istifadə oluna bilər. Tövsiyələr dəqiq və spesifikdir, onlar ayrı-ayrı və ya kompleks şəkildə həyata keçirilə bilər.

Ümumiyyətlə, qəbul olunmuş əlavələr, onlara bəraət qazandırmaq və ya tənqid etmək istəyindən asılı olaraq müxtəlif perspektivlərdən müzakirə oluna bilər. Bu araşdırmanın əsas mövzusu olan media siyasətinin həyata keçirilməsi perspektivinden yanaşdıqda burada iki məsələ ön plana çıxır. Birincisi, sözügedən əlavələr idarə və inzibati hüququn şəffaflıq, düzgünlük və bitərəflik tələblərinə cavab vermir.

İkincisi, siyasətin həyata keçirilməsi baxımından, əlavələr, Azərbaycanın qoşulduğu beynəlxalq razılaşma və konvensiyaların tələb və məqsədlərinə ziddir. Bu sənədlərə qoşularaq Azərbaycan bir sıra beynəlxalq təşkilatlara üzvlüyü qəbul etmişdir və ölkənin üzərinə düşən öhdəliklərdən biri də, beynəlxalq sazişlərin yerli qanunvericilik üzərində aliliyidir.

Nəticədə, Azərbaycan dövləti üçün adıçəkilən əlavələrə yenidən baxılması məsələsi həyati əhəmiyyət kəsb edir. Bunun çərçivəsində hakimiyyət, media üçün tənzimləyici mexanizmlər yaratmalı; bu məsələ ilə məşğul olan müstəqil, şəffaf və məsuliyyətli qurumların əsasını qoymalı; və ən əsası fundamental insan hüquqları bir-biri ilə ziddiyyət təşkil etdikdə problemin həlli üçün daha balanslaşdırılmış, beynəlxalq təşkilatlar və dünya praktikasına əsaslanan siyasət həyata keçirməlidir.

## İstifadə olunmuş mənbələr


1. Açıq Cəmiyyət İnstitutu / Soros Fondunun Kütləvi İnformasiya Vasitələri Proqramı tərəfindən mətbuatın vəziyyətinin analizi, http://www.osi.az/index.php?option=com_content&task=view&id=137&Itemid=135
2. Avropa İnsan Hüquqları Konvensiyası, http://www.hri.org/docs/ECHR50.html#C.Art8
3. Avropa Şurasının məlumat bazası, http://www.coe.int/t/dc/files/themes/pays_membres/azerbaijan/default_EN.asp
4. Avropanın "audio-visual" sektoruna aid olan hüquqi məlumat bazası, http://merlin.obs.coe.int/iris/2010/5/article2.en.html
5. Azərbaycan Respublikasının Konstitusiyası, http://www.president.az/browse.php?sec_id=52
6. Brems, E., 2008. "*Conflict between Fundamental Rights*"("*Fundamnetal Hüquqlar arasında Münaqişə*"), Intersentia Publishers
7. Freedom House Azərbaycan üzrə ölkə hesabatı http://www.freedomhouse.org/template.cfm?page=251&country=7560&year=2009
8. Frost, C., 2000. "*Media Ethics and Self-Regulation*" ("*Media Etikası və Özünütənzimləmə*") Pearson Education Ltd.
9. IFEX, Avropa və Mərkəzi Asiya üzrə məlumat bazası, 17 Fevral, 2010 http://www.ifex.org/azerbaijan/2010/02/16/amendments_passed/, Access date April 05, 2010
10. INAM Plüralizm Mərkəzi, Azərbaycanda demokratiyanın mövcud durumu haqqında hesabat, Fevral 2009, http://www.inamcfp.org/index_en.htm
11. Mərkəzi Asiya və Cənubi Qafqaz İfadə Azadlığı Şəbəkəsinin Azərbaycan üzrə verilənlər bazası ,10 Mart, 2009, http://www.cascfen.net/?p=832
12. Mərkəzi Kəşfiyyat İdarəsinin Azərbaycan üzrə məlumat bazası, https://www.cia.gov/library/publications/the-world-factbook/geos/aj.html
13. Solove, D.J. and Schwartz, P.M., 2008. "*Privacy and The Media*" ("Şəxsi həyat və Media"), Aspen Publishers
14. Spark, D., 1999."İnvestigative Reporting" ("*Tədqiqatçı Xəbərötürmə*"), Focal press
15. Waisbord, S.R., 2000. "*Watchdog journalism in South America: news, accountability, and democracy*", ("Cənubi Amerikada nəzarətçi jurnalistika: xəbərlər, məsuliyyət və demokratiya") Columbia University Press